**«Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. «Təbiəti mühafizə və təbiətdən istifadə haqqında» Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1992-ci il, № 6, maddə 154) qüvvədən düşmüş hesab edilsin.

II. «Təbiəti mühafizə və təbiətdən istifadə haqqında» Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi barədə» Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının Qərarının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 6, maddə 155) 1-3-cü bəndləri qüvvədən düşmüş hesab edilsin.

III. İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikasının Məcəlləsinə (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1984-cü il, № 23, maddə 198) əlavələr edilsin:

1. Məcəlləyə aşağıdakı məzmunda 87-8-ci maddə əlavə edilsin:

«Maddə 87-8. **Ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyin pozulması**

Dövlət ekoloji ekspertizasına aid edilən obyektlər barədə ekspertin müsbət rəyi olmadan sənaye və ərzaq məhsullarının istehsalına və ya Azərbaycan Respublikasının ərazisinə gətirilməsinə, işlərin, xidmətlərin yerinə yetirilməsinə, dövlət ekoloji ekspertiza orqanlarının vəzifəli şəxsləri və dövlət ekoloji ekspertizasını aparan ekspertlər tərəfindən rəylərin ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin və normativlərin tələblərini pozaraq hazırlanmasına, vəzifəli şəxslər tərəfindən ətraf mühitin mühafizəsi sahəsində yanlış informasiyanın verilməsinə, informasiyanın vaxtında verilməməsinə və ya gizlədilməsinə görə—

vətəndaşlar minimum əmək haqqı məbləğinin on mislindən otuz mislinədək miqdarda, vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin otuz mislindən əlli mislinədək miqdarda cərimə edilirlər».

2. 233-9-cu maddənin:

adında və mətnində «istehsalat» sözü müvafiq olaraq «Ətraf mühitin mühafizəsi sahəsində və istehsalat» sözləri ilə əvəz edilsin;

mətnində «və 85-1-ci maddəsində» sözləri «85-1-ci və 87-8-ci maddələrində» sözləri ilə əvəz olunsun.

IV. «Statistika haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1994-cü il, № 11, maddə 115) aşağıdakı dəyişikliklər edilsin:

1. 6-cı maddənin 6-cı bəndinə «qaydaları» sözündən sonra «(ətraf mühitin mühafizəsi sahəsində dövlət statistikasının aparılması qaydaları istisna olmaqla)» sözləri əlavə edilsin.

2. 8-ci maddənin ikinci hissəsində «Statistika hesabatları» sözlərindən sonra «(ətraf mühitin mühafizəsi sahəsində statistika hesabatları istisna olmaqla)» sözləri əlavə edilsin.

V. «Nəqliyyat haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 1999-cu il, № 7, maddə 399) 22-ci maddəsinin 5-ci bəndinin ikinci hissəsinə «ölkə ərazisinə daşınması» sözlərindən sonra «və ölkə ərazisindən tranzit yolu ilə aparılması» sözləri əlavə edilsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 16 may 2000-ci il
№ 879-IQD